



VƏCİHƏ

# SƏMƏDOVA

**1924 - 1965**

rəngkarlıq qrafika

SƏRVƏT

Bakı, 2013

Layihənin rəhbəri: **Çingiz Fərzəliyev**

Layihənin əlaqələndiricisi
və mətnin müəllifi **Toğrul Əfəndiyev**

**Head of Project:** **Chingiz Farzaliyev**
Project Coordinator
and Author of the Text **Togrul Afandiyev**

Azərbaycan təsviri sənət ustalarına həsr olunmuş **“Sərvət”** albomlar silsiləsinin hazırlanmasında Azərbaycan Milli İncəsənət Muzeyinin əməkdaşları yaxından iştirak etmişlər.
Silsilədə Azərbaycan Milli İncəsənət Muzeyinin,
Müasir İncəsənət Muzeyinin,
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin,
Azərbaycan Dövlət Rəsm Qalereyasının,
Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin,
Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondlarında saxlanılan əsərlərdən və arxiv materiallarından istifadə olunmuşdur.
Silsilədə həmçinin özəl qalereyalarda və şəxsi kolleksiyalarda qorunub saxlanılan sənət əsərləri də təqdim edilmişdir

Staff of the Azerbaijan National Museum of Art participated in the preparation of the **“Servet”** series of albums dedicated to the masters of Azerbaijani art.
This album series features works of art and archive materials in the following museums:
The Azerbaijan National Museum of Art,
The Museum of Modern Art,
The Nizami Ganjavi Azerbaijan National Museum of Literature,
The Azerbaijan State Art Gallery,
The Azerbaijan State Museum of Musical Culture,
The Jafar Jabbarli Azerbaijan State Museum of Theatre
and private galleries and collections

ISBN 978-9952-34-973-3
ISBN 978-9952-34-987-0

Fotolar — Ələkbər Ağasiyev
Arxiv araşdırmaları — Nailə Rəhimova
Baş dizayner — İrina Eldarova
İngilis dilinə tərcümə — Ian Peart, Səadət İbrahimova, Əminə Məlikova

Photography — Alakbar Aghasiyev
Archive Research — Naila Rahimova
Designer in Chief — Irina Eldarova
Translation into English — Ian Peart, Saadat Ibrahimova, Amina Melikova

© “Şərq-Qərb” Nəşriyyat Evi, 2013
© “Sharq-Qarb” (“East-West”) Publishing House, 2013

“Şərq-Qərb” Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur
Azərbaycan, AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.:(+99412) 374 83 43

Printed at “Sharq-Qarb” Publishing House
Address: 17, Ashiq Alasgar Str., Baku, AZ1123, Azerbaijan
Tel.:(+99412) 374 83 43
www.eastwest.az www.fb.com/eastwest.az

# Mündəricat
# Contents


6

Vəcihə Səmədova
**Həyat və yaradıcılıq**

Vajiha Samadova
**Life and Creative Work**

98

Qısa tərcümeyi-hal
**Short Biography**



**“Mənzərə”**
*Karton, yağlı boya, 1957*
**“Landscape”**
*Cardboard, oil, 1957*

# VƏCİHƏ SƏMƏDOVA



**Vəcihə Səmədova**
**Vajiha Samadova**

*"Bakılılar alovlu qara gözləri olan bu qədd-qamətli hündür qadını yaxşı xatırlayırlar. Uzun illər təsviri sənətdən dərs dediyi Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin şagirdləri ilə daima əhatə olunan Vəcihə Səmədova gənclik və tükənməz enerjinin təcəssümü kimi görünürdü".*

Görkəmli Azərbaycan sənətşünası Rasim Əfəndiyevin Vəcihə Səmədovanın yaradıcılığından bəhs edən monoqrafiyaya təqribən qırx il öncə yazdığı giriş məqaləsi belə başlayırdı. Lakin məqalədə yazılanların əksəriyyəti bu gün də öz əhəmiyyətini itirməyib. Onun şagirdləri boya-başa çatdı və Azərbaycanın aparıcı rəssamlarına çevrilərək ölkəmizi və onun incəsənətini yer kürəsinin bir çox guşələrində tanıtdı. Onlar öz müəllimini - ilk peşəkar addımlarını atan şagirdlərinə sənətə və özlərinə qarşı tələbkarlıq, daimi təkmilləşməyə canatma hissini aşılamış insanı hər zaman minnətdarlıqla yad edirlər. Onun milli təsviri sənətin qızıl fonduna qeyd-şərtsiz daxil olmuş əsərləri respublikanın əsas muzeylərindən biri, Azərbaycan xalqının sənət irsinin qorunduğu Azərbaycan  Milli



İncəsənət Muzeyini bəzəyir. Onun adı Azərbaycan incəsənəti ustalarının bir neçə nəslinə böyük peşəkar həyata vəsiqə vermiş Rəssamlar İttifaqının sərgi salonunun adında əbədiləşdirilib. Ölkəmizin mədəni həyatının əsas ocaqlarından biri hesab olunan bu salonda daima qızğın rəssamlıq-sərgi fəaliyyəti cərəyan edir.

Ulu tanrı tərəfindən ona qısa ömür verilmişdi. Lakin bu gün onun sənətinə, keçdiyi peşəkar yola nəzər saldıqda belə bir qısa vaxt ərzində yerinə yetirilmiş möhtəşəm əsərlərin sayı insanı heyrətləndirir, ustadın enerjisi və bütün səylərini sənətə yönəltməsi böyük təsir buraxır. Rəssam ömrünün qısa olduğunu sanki hiss edir və bacardığı qədər çox iş görməyə çalışırdı. Bununla belə onun əsərləri tez-tələsik görülmüş iş təəssüratını doğurmur, onların hər biri tam başa çatdırılmış, kompozisiya və rəng baxımından yoxlanılıb təshih edilmiş obrazlı tablolardır. Artıq erkən işlərdən qarşımızda hər bir halda konkret məqsədi olan və ona doğru müxtəlif təsviri və texniki priyomlarla irəliləyən olduqca istedadlı rəssam görürük. Onun səciyyəvi sənət yolu mədəniyyətimizdə olduqca canlı və hadisələrlə dolu olan dövrün,

**"Çimərlikdə"**
*Karton, yağlı boya, 1955*
**"On the Beach"**
*Cardboard, oil, 1955*

**"Mənzərə"**
*Karton, yağlı boya, 1947*
**"Landscape"**
*Cardboard, oil, 1947*







“Avtoportret”
*Kətan, yağlı boya, 1947*
**“Self-portrait”**
*Canvas, oil, 1947*

**“Əzizə Məcidovanın portreti”**
*Karton, yağlı boya, 1949*
**“Portrait of Aziza Majidova”**
*Cardboard, oil, 1949*

həmçinin istedadlı şəxsiyyətin rəssamlıq dəst-xəttinin fərdi axtarış və inkişaf məcrasında tez-tez təhlil edilir. Eyni zamanda rəssamın sənətinin hansı nöqteyi-nəzərdən təhlil olunmasına baxmayaraq, istənilən şəraitdə əsl peşəkar, həssas və öz işini bilən pedaqoq, ləyaqətli həyat yoldaşı və qayğıkeş ana kimi Vəcihə xanımın şəxsiyyəti daima mərkəz yerdədir.

Xüsusilə qeyd etmək lazımdır ki, onun sənət bioqrafiyası yalnız incəsənətdə qadının yolu kimi deyil, başlıca olaraq fasiləsiz axtarışlar, nailiyyətlər, uğur və müvəffəqiyyətlərlə səciyyələnən əsl sənətkarın peşəkar karyerası kimi diqqəti cəlb edir.

Vəcihə Əli qızı Səmədova 1924-cü ildə Bakıda, qənnadçı Kəblə Əlinin ailəsində dünyaya göz açıb. Atası Qars azərbaycanlılarından, anası isə İranın Məsuməyi-Qum şəhərindən köçüb gəlmiş yerli azərbaycanlılardan idi. Onların evi şəhərin tarixi hissəsi olan İçərişəhərdə, keçmiş dövrlərin



ab-havasının duyulduğu, nəsildən-nəslə müəyyən münasibətlərin, şərəf kodeksi və mənəvi dəyərlərin formalaşdığı məkanda yerləşirdi. Azərbaycan ziyalılarının xeyli hissəsi burada dünyaya gəlmiş və boya-başa çatmış, ölkəmizin mədəni həyatında öz tutarlı sözünü demiş bir çox sülalələrin əsası məhz burada qoyulmuşdu.

Ümumiyyətlə, ötən əsrin 20-ci illərinin Bakısı haqlı olaraq Şərqlə Qərbin heyrətamiz qatışığı hesab oluna bilər. Burada yeniliyə cəhdlə ənənəvi dəyərlərə qayğıkeş münasibət, zəngin tarixi irslə mədəniyyət və incəsənətdəki yeni cərəyanlar təbii şəkildə yan-yana mövcud idi. Bütün bu proseslər şəhər sakinlərinin və xüsusən də gənclərin həyatında və düşüncə tərzində öz əksini tapırdı. Ola bilsin, o çağlarda incəsənətə, rəssamlığa göstərilən və milli rəssam kadrların bütöv

**"Balaca Nicat"**
*Karton, yağlı boya, 1950*
**"Little Nijat"**
*Cardboard, oil, 1950*

**"Qadın portreti"**
*Karton, yağlı boya, 1950*
**"Portrait of a Woman"**
*Cardboard, oil, 1950*





**"Qadın portreti"**
*Karton, yağlı boya, 1951*
**"Portrait of a Woman"**
*Cardboard, oil, 1951*



nəslinin yetişməsinə səbəb olmuş belə maraq məhz bununla şərtlənirdi. Vəcihə xanımın yaşadığı ev möhtəşəm Şirvanşahlar sarayı kompleksinin yaxınlığında idi. Və ehtimal etmək olar ki, bu görkəmli memarlıq şah əsəri özünün mükəmməl proporsiyaları, bənzərsiz kompozisiya-plastik həlləri və haqlı olaraq "daşda donmuş melodiya" kimi xarakterizə edilən təkrarolunmaz dekorativ oymaları ilə balaca qızcığazda gözəlliyə məhəbbət və onu öz əlləri ilə qurmaq arzusunun meydana gəlməsinə səbəb olmuş qığılcım rolunu oynayıb. Gələcək rəssamın atası kifayət qədər adi sənətlə məşğul olmasına baxmayaraq, incəsənətə meylli idi. O, mahnı oxumağı sevir və daima öz qızlarına (Vəcihə xanımın kiçik bacısı Solmaz sonralar memar oldu) çox sevdiyi kərkük və qars nəğmələrini oxuyardı. Sonralar bu nəğmələr Vəcihə xanım üçün də doğma olacaqdı. Mühitin belə bir sintezi, həmçinin evdəki sənət ab-havası hələ uşaq ikən Vəcihə xanıma güclü təsir göstərmiş, gercəkliyin

**"Qadın portreti"**
*Karton, yağlı boya, 1956*
**"Portrait of a Woman"**
*Cardboard, oil, 1956*



məhz bədii prizmadan dərk edilməsinə səbəb olmuşdur. Nəticədə balaca Vəcihə rəssamlığa maraq göstərməyə başlayır, vaxtının çox hissəsini bu işə həsr edir. Qızının bu həvəsini görən atası onu hər vəchlə dəstəkləyir. O, öz qızı üçün dünyanın müxtəlif muzeylərində saxlanılan və tanınmış rəssamlara aid olan əsərlərə illüstrasiyaların çap edildiyi kitablar alırdı. Beləliklə, tədricən gənc qızın peşə seçimi dəqiq müəyyən olundu və orta məktəbin 7-ci sinfini bitirdikdən sonra Vəcihə Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olur. Artıq tələbə ikən gənc rəssamın istedadı üzə çıxmağa başlayır. Bakı Rəssamlıq məktəbinin yüksək səviyyəli ixtisaslaşdırılmış tədris müəssisəsi olmasına baxmayaraq, bu peşəyə daha dərindən yiyələnmək üçün rəssamın əlavə bilik və vərdişlərə ehtiyacı var idi. Bu məqsədlə Vəcihə xanım rəssamlıq məktəbini bitirdikdən sonra 1944-cü ildə V.İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun təsviri sənət fakültəsinə daxil olur. Məhz Moskvada təhsil aldığı illər peşəkar təmələ çevrilərək V. Səmədova istedadının inkişafına səbəb oldu. Bu illər gərgin əmək və peşə sirlərinin öyrənilməsi ilə səciyyələnirdi. Gənc Vəcihənin rəssam kimi formalaşmasında istedadlı müəllimlər və əsl rəssamlar P. Korin və V. Yakovlevin rolu danılmazdır. Bu tanınmış tədris ocağındakı sənət ab-havası, rəssamlıq mühiti rəssamın peşəkar inkişafında mühüm rol oynadı. Moskvada təhsil alarkən Vəcihə xanım A.S. Puşkin adına Təsviri Sənət Muzeyində və Tretyakov qalereyasında saxlanılan Avropa və rus

**“Xəmir yayan qadın”**
*Karton, yağlı boya, 1956*
**“Woman Kneading Dough”**
*Cardboard, oil, 1956*

**“Daşkəsən”**
*Karton, yağlı boya, 1954*
**“Dashkesan”**
*Cardboard, oil, 1954*

incəsənətinin şah əsərləri, keçmişin böyük sənətkarlarının orijinal əsərləri ilə ilk dəfə təmasda olmaq imkanı qazandı. Bütün bunlar hələ tələbə ikən gənc rəssamın isdedadının özünü biruzə verməsinə səbəb oldu. Tədris yolu ilə incəsənətdə peşəkar vərdişlərin qazanılması və tanınmış əsərlərin orijinalları ilə əyani tanışlıq, şübhəsiz, Vəcihə Səmədovanın yaradıcılıq üslubunun formalaşmasına müsbət təsir göstərdi. Bu məqam onun erkən işlərində xüsusilə nəzərə çarpır. Hələ Surikov adına institutda təhsil alarkən Vəcihə Səmədova özünü olduqca zəhmətkeş tələbə, öz peşəsinə fədakarcasına bağlı olan insan kimi göstərmişdi. O, öz çalışqanlığı, çox işləmək qabiliyyəti, bilik və bacarıqlarını daima təkmilləşdirməyə can atması ilə seçilirdi. Hətta sessiyalar arasındakı fasilələr zamanı Bakıya tətilə gələn Vəcihə yorulmadan işləyir, çoxlu sayda mənzərə və natura







rəsmi, etüd çəkir, daha sonra isə onları tələbkar müəllimlərinə göstərmək üçün özü ilə Moskvaya aparırdı. Beləcə Vəcihə xanımın yaradıcılıq şəxsiyyəti formalaşır, ustalığı və bacarığı cilalanırdı.

Lakin Moskvadakı təhsil illəri yalnız sevimli peşənin əsaslarının öyrənilməsi dövrü deyildi. Məhz bu mərhələdə Vəcihə xanımın şəxsi həyatında əlamətdar hadisə baş verir. O, istedadlı rəssam, Bakıdakı Rəssamlıq məktəbində ona dərs demiş və həmin illərdə onun kimi Moskvada öz peşə təhsilini davam etdirən Lətif Feyzullayevlə ailə həyatı qurur.

Moskvada oxuduğu illərdə Vəcihə xanım bir çoxlarının tədris prosesinin təməli kimi qəbul edilən "məktəb" məfhumunu dərindən dərk edir. Onun üçün məktəb anlayışı pedaqoqun peşə bilikləri, şəxsi psixoloji xarakteristikaları, öz biliklərini qayğıkeşlik və nəzakətlə ötürmək, şagirdlərinin fərdi imkanlarının açılmasına yardım etmək bacarığı və eyni zamanda tədris prosesinə tələbkar münasibətinin sintezi kimi qavranılırdı. Vəcihə xanım Moskvada təhsil alarkən bütün bu keyfiyyətləri mənimsədi. Burada onun görkəmli rəssam P. Korin kimi diqqətli müəllimi var idi, Vəcihənin özü böyük məsuliyyət hissinə, tükənməz enerji və işləmək qabiliyyətinə malik idi. Onun hər şeyi öyrənmək həvəsi isə Moskvada keçmişin böyük sənətkarlarının əsərləri ilə tanışlıqla tam təmin olunurdu. Gələcəkdə rəssamlıq pedaqogikasının məhz bu təməllərinə söykənən Vəcihə xanım öz şagirdlərinə (o, 1954-cü ildən ömrünün sonunadək Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində dərs deyib)

**"Qadın portreti"**
*Karton, yağlı boya, 1950*
**"Portrait of a Woman"**
*Cardboard, oil, 1950*

peşənin sirlərini öyrətməyə çalışırdı. Bir çox müasirlərin sözlərinə görə şagirdləri onu dəlicəsinə sevirdilər.

Moskvada təhsilini başa vurduğu zaman Vəcihə Səmədova həm mürəkkəb, həm də lokal vəzifələri eyni müvəffəqiyyətlə yerinə yetirmək iqtidarında olan yetkin rəssam idi. 1951-ci ildə çəkilmiş "Üzeyir Hacıbəyov Azərbaycan bəstəkarlarının arasında" adlı diplom işi deyilənlərin bariz nümunəsidir. Mövzunun özü və onun həlli uzun və gərgin əməyin nəticəsidir. Çoxfiqurlu kompozisiyanın təsvir olunduğu bu böyük tabloda müasir Azərbaycan musiqisinin banisi Üzeyir bəyin bir neçə tələbəsi həmkarlarının royalda ifa etdiyi musiqi əsərini onunla birlikdə dinlədikləri an görüntüyə gətirilmişdir. Mürəkkəb və çoxfiqurlu olmasına baxmayaraq, kompozisiya kifayət qədər cəsarət və peşəkarlıqla həll olunub. Onun bütövlüyü yalnız düşünülmüş plastik həll ilə deyil, olduqca dolğun, qarşılıqlı əlaqədə olan rənglərin təşkili əsasında qurulur. Əsərin özündə fiqurların duruşunda müəyyən quruluğun olması və "məktəb"in təsiri sezilsə belə, rəssamın özünü artıq müstəqil sənətkar kimi bəyan etdiyini söyləmək mümkündür. Gənc rəssamın bu diplom işi yüksək qiymətə layiq görüldü və Vəcihə xanıma aspiranturaya daxil olmaq təkidlə tövsiyə edildi. O, burada daha 3 il oxudu. Təhsilini başa vurduqdan sonra müəllimi P. Korinin Moskvada qalıb işləməklə

**Vəcihə xanım tələbələri ilə yay təcrübəsində, Altıağac, 1961**
**Vajiha khanim together with her students during summer practice in Altyaghach, 1961**





bağlı öyüdlərinə baxmayaraq, Vəcihə xanım Bakıya qayıdıb müstəqil rəssamlıq karyerasına başlamaq qərarına gəlir. Beləcə Vəcihə xanım Azərbaycan təsviri sənət tarixində ilk peşəkar qadın rəssam olur.

Rəssam sanki doğma torpağı yenidən kəşf etməyə başlayır, həyat yoldaşı və həmkarı Lətif Feyzullayevlə birlikdə respublikamızın bir çox guşələrinə səfərlər edir. Doğma diyarın təbiəti, bənzərsiz gözəlliyə malik çay və dərələr, saf dağ çeşmələri və bulaqlar, möhtəşəm Kür və qoca Xəzər rəssamın çoxsaylı tablolarında öz bədii əksini tapır. Eyni zamanda şəxsiyyətlər, zəhmətkeş kəndli obrazları, çoxsaylı ezamiyyətlərdə müşayiət etdiyi adi məişət səhnələri rəssamın diqqətini cəlb edir. Respublikanın qərb regionlarına, Gəncə, Göygöl və Daşkəsənə edilən səfərlərin təəssüratı altında ərsəyə gəlmiş cizgi, etüd və eskizlər silsiləsi xüsusilə uğurlu və maraqlı hesab oluna bilər. Bu əsərlər arasında özünün dəqiq kompozisiya-plastik həlli və dərin rəng palitrası ilə fərqlənən “Kəpəz”, “Toğana kəndi”, “Daşkəsən”, “Göygöl”, “Çadırlar” tabloları

**“Mənzərə”**
*Karton, yağlı boya, 1956*
**“Landscape”**
*Cardboard, oil, 1956*



daha səciyyəvidir. Onlar rəssamı bu erkən mərhələdə artıq böyük rəngkar kimi xarakterizə edir. Təqribən 1953-54-cü illərə aid olan bu silsilə janr və süjet özəllikləri ilə yanaşı, sırf rəng və peşəkar-bədii xüsusiyyətlərlə də birləşmişdir.  Paralel olaraq Vəcihə xanım portret janrında da gərgin fəaliyyət göstərir. 1953-cü ildə çəkilmiş "Aktrisa Lelya Bədirbəylinin portreti" bu dövrün ən böyük nailiyyəti hesab olunur. Hazırlıq eskizləri və cizgilərə nəzər salarkən rəssamın ən münasib və ifadəli kompozisiyanı tapmaq üçün, tablonun rəng quruluşunu təmin etmək üçün kifayət qədər böyük iş gördüyünü anlayırsan. İddia etmək olar ki, bu portret rəssamın yaradıcılığında əsaslı mərhələ xarakterlidir və Vəcihə xanımın mənzərə janrında məharəti ilə yanaşı, güclü portret ustası olmasından xəbər verir. Fiqurun quruluşu, kətanın koloristik təşkili və dəqiq düşünülmüş rəng vurğuları ilə ifadə olunan naturanın psixoloji cəhətdən dərindən duyulması, təsvir edilən obrazın açılması məqsədini daşıyan fonun incəliklə işlənilməsi – portret janrında görkəmli peşəkar olan Vəcihə

**"Çinarlar"**
*Karton, yağlı boya, 1957*
**"Sycamores"**
*Cardboard, oil, 1957*

xanımın bu fərdi xüsusiyyətləri məhz bu əsərdə ilk dəfə açıq-aşkar təzahür edib. Həmin illərdə portret janrında işləyən əksər müasirlərindən fərqli olaraq, o, portreti çəkiləni səciyyələndirən predmet yaxud atributlara heç vaxt böyük önəm vermir. Onun bütün enerjisi və ustalığı obrazın üzərində, personajın psixologizmində cəmləşib.

1954-cü ildə Vəcihə xanım bu əsərini bir neçə mənzərə ilə birlikdə Bakıda keçirilən Azərbaycan rəssamlarının sərgisində nümayiş etdirdi. Təqdim olunan əsərlər böyük rəğbət və uğur qazandı. Həmin dövrdə "institutu təzəcə bitirmiş bu qız necə də istedadlıdır" kimi ifadələri tez-tez eşitmək olurdu. Vəcihə xanım haqqında ölkə təsviri sənətindəki yeni böyük rəssam kimi danışmağa başladılar. Onun müəllifi olduğu "Aktrisa Leyla Bədirbəylinin portreti" çoxsaylı respublika və ümumittifaq sərgilərində, müasir milli mədəniyyəti xaricdə təmsil edən vernisajlarda dəfələrlə nümayiş etdirilib. Müasir Azərbaycan incəsənətinin qızıl fonduna daxil olan bu portret milli təsviri sənətimizin ən uğurlu nümunələrindəndir.

Belə bir böyük uğurdan sonra Vəcihə xanım Səmədova təsviri sənətimizə müstəqil, parlaq şəxsiyyət kimi qeyd-şərtsiz və tamhüquqlu üzv kimi daxil oldu və həmişəlik olaraq belə qaldı. Respublika sərgisindəki uğur gənc rəssamı daha həvəsləndirdi və o, ikiqat enerji və ruh yüksəkliyi ilə müxtəlif janrlarda çalışmağa başlayır, portret,

**"Bulaq"**
*Karton, yağlı boya, 1954*
**"A Spring"**
*Cardboard, oil, 1954*





mənzərə, süjetli mövzu tabloları üzərində işləyir. Ölkə regionlarına çoxsaylı səfərlər bu baxımdan mühüm rol oynayırdı. Vəcihə xanım həyat yoldaşı ilə birlikdə gözəl vətənimizin bir çox guşələrini gəzib-dolaşıb. Həmin dövrdə çəkilmiş tablolara retrospektiv baxış nəticəsində aydın olur ki, rəssam hər şeyə - yerli mənzərələrə, təbiətin insan əli dəyməmiş guşələrinə, adamların adi iş günləri və istirahət saatlarına, insanların asudə vaxtına, sadə kəndli sevincləri və şənliklərinə maraq göstərirdi. Rəssam gördüklərini həssaslıqla dərk edir, daha sonra isə öz əsərlərində ifadə edir. Bütöv və məqsədyönlü şəxsiyyət kimi onu ilk növbədə güclü, iradəli insanlar cəlb edirdi. Onların xarakteri əksər hallarda bilavasitə portretdə özünü biruzə verirdi. Qeyd etmək lazımdır ki, Vəcihə xanım bütün qısa ömrü boyu əsasən qadın və uşaqların, öz doğma və yaxınlarının portretlərini çəkib. Bu dairənin zahirən məhdud görünməsinə baxmayaraq, işlərlə daha yaxından tanışlıq tamaşaçıya geniş çeşidli emosional vəziyyətlər qammasını, incə psixologizmi, rəssamın çəkdiyi obrazlara diqqət və sevgisini çatdırır. Nəticədə müəllifin

**“Çuxuryurd”**
*Karton, yağlı boya, 1953*
**“Chukhur -Yurd”**
*Cardboard, oil, 1953*



bütövlükdə portret janrına verdiyi əhəmiyyəti dərk edirsən. Artıq qeyd edildiyi kimi, Vəcihə xanım özünə qarşı ciddi tələbkarlığı, yorulmadan və bəzi hallarda fədakarcasına işləmək bacarığı, öz dəst-xəttini inkişaf etdirmək istiqamətində daimi və dərin axtarışlar etməsi ilə fərqlənirdi. Bir çox tanınmış əsərlərinə çəkdiyi çoxsaylı hazırlıq eskiz və etüdləri bunu sübut edir. Bu, onun səciyyəvi metodikası idi. Onun portret üzərində öz iş prinsipi var idi. O, heç vaxt əsərləri bir etüdlə çəkmirdi. Bir qayda olaraq, 5-6 etüd çəkərək, tədricən tamamlanmış hesab etdiyi obraza, onun kompozisiya quruluşuna və rəng həllinə yaxınlaşırdı. Bu əsərlərə nəzər saldıqca rəssamın fiqurun ideal plastik işlənməsi istiqamətində məqsədyönlü iş apardığının şahidi olursan. Ona görə də etüd Vəcihə Səmədovanın sənətinin dərk edilməsi üçün çox önəmli rol oynayır. Bu, artıq sadəcə olaraq yardımçı aralıq materialı deyil, kətanın nəfis təşkili, tapılmış kompozisiya quruluşu, rəng ləkələri və vurğularının düşünülmüş nisbəti ilə çatdırılan emosional vəziyyətlərin böyük spektrindən ibarət müstəqil tablodur.

**“Otlaqda”**
*Kətan, yağlı boya, 1961*
**“At Pasture”**
*Canvas, oil, 1961*



Rəssamın 1956-cı ildən başlayan yaradıcılıq mərhələsi onun həyatının ən məhsuldar dövrü kimi qiymətləndirilə bilər. Parlaq, olduqca nəfis, rəng baxımından peşəkarcasına mükəmməl mənzərə tablolarından savayı, rəssam bu mərhələdə öz müasirlərinin portretlər qalereyası üzərində çalışır. Yuxarıda qeyd olunduğu kimi, bu portretləri tipoloji cəhətdən iki qrupa bölmək mümkündür. Birinci qrupa rəssama doğma və yaxın olan insanların portretləri daxildir, ikinci qrupda isə ölkə regionlarına səfərlər nəticəsində ərsəyə gəlmiş müasirlərin obrazları toplanıb. Bəlkə də bu mərhələni təsviri sənət prinsiplərinin dərk edilməsi və öz dəst-xəttinin inkişaf etdirilməsi istiqamətində rəssamın atdığı keyfiyyət

**"Qəsəbə. Zığ"**
*Karton, yağlı boya, 1957*
**"Zykh Settlement"**
*Cardboard, oil, 1957*

**"Sarmaşıq qızılgüllər"**
*Karton, yağlı boya, 1954*
**"Bindweends"**
*Cardboard, oil, 1954*

baxımından yeni addım kimi səciyyələndirmək olar. Artıq onun sənəti qarşıya qoyulan vəzifələrin cəsarətliliyi və müstəqilliyi, öz rəssamlıq üslubunun təkmilləşdirilməsi yolunda fasiləsiz axtarış və ixtiyarında mövcud olan bədii ifadə vasitələrinin "ideal"a çatdırılmasına daimi canatma ilə səciyyələnir. Bu təkamülü əyani şəkildə görmək üçün rəssamın müxtəlif illərdə çəkdiyi bir neçə avtoportretə müraciət edək. Erkən dövrə aid işlərdə "məktəb"in güclü təsiri, ispan, holland, flamand rəssamlıq məktəblərinin böyük sənətkarlarının yaradıcılığı və təsvir üslubunun təsiri nəzərə çarpır ("Avtoportret", 1947-ci il). Bu təsirin özündə qəbahətli bir şey yoxdur. Müasir rəssamların əksəriyyəti bu mərhələni yaşayıb və təsviri sənətin sirlərinin dərindən öyrənilməsində onun müəyyən mənada faydası da olub. Lakin ayrı-ayrı hallarda keçmişin böyük sənətkarlarının sənətini öyrənərkən həmişəlik onların təsiri altına düşmək, inkişafdan geri qalmaq təhlükəsi var. Eyni zamanda bunun istənilən rəssam üçün böyük məktəb və peşə təhsilinin müəyyən mərhələsi olduğunu da qəbul etmək lazımdır. Sadəcə olaraq bəziləri ömürlərinin qalan hissəsini bu "məktəb"in təsiri altında keçirir, digərləri isə həmin bilikləri fərdi inkişafda keyfiyyət baxımından yeni addımların atılması üçün istifadə edir. Bu nöqteyi-nəzərdən V. Səmədovanın





sənəti istisna təşkil etmir. Onun erkən avtoportretləri düşünülmüş təsir altındadır, işlərin rəng xarakteristikası tünddür, fakturalıdır, ayrı-ayrı parlaq vurğularla səciyyələnir. Rəssam sanki öz palitrasını sınayır, qarşısına böyük vəzifələr qoyur. Vəcihə xanımın 1956-cı ildən sonra çəkilmiş avtoportretləri daha fərdidir. Tabloların tonallığı aydınlaşır,

**"Kitab oxuyan qız"**
*Kətan, yağlı boya, 1953*
**"Girl Reading a Book"**
*Canvas, oil 1953*



Rəssam emalatxanada
The artist in her studio

fiqurun quruluşu, kompozisiya həlləri daha böyük sərbəstlik və emosionallıq qazanır, rəng palitrası daha cingiltili və dekorativ dolğun olur (“Qırmızı yaylıqla avtoportret”, 1956-cı il), ən başlıcası isə rəsm çəkmək tərzi yüngüllük və ifadəliliklə səciyyələnir. Bu illər ərzində çəkilmiş əsərlər arasında portretlərin mühüm yer tutduğunu artıq qeyd

etmişdik. Bununla əlaqədar rəssamın oğlu Nicatın təsvir olunduğu "Gənc skripkaçı" (1957) və Vəcihə xanımın bacısının natura kimi çıxış etdiyi "Memar Solmaz Səmədovanın portreti" (1960) tablolarını xüsusilə qeyd etmək lazımdır. Bu əsərlər kompozisiya və rəng baxımından bir-birindən fərqlənsə də, onları dərin psixologizm, müəllifin doğma və çox sevdiyi obrazlara səmimi incə münasibəti birləşdirir. Vəcihə xanımın oğlu Nicatın xatirələrindən: "Anam həm emalatxanada, həm evdə, həm Rəssamlar İttifaqında və həm də Rəssamlıq məktəbində həmişə məşğul idi. Sanki ömrünün qısa olacağını qabaqcadan bilir, yaşamağa, hər şeyi



çatdırmağa tələsirdi...Mən orta məktəbdə oxumaqla yanaşı, ayrıca musiqi məktəbində, skripka və fortepiano ilə də məşğul olurdum. Günorta, məktəbdən çıxıb musiqi məktəbinə getməli idim. Vaxtım az olduğundan evə gedə bilmirdim. Odur ki, həmişə məşqul olan anam, bir dəqiqə də artıq vaxtı olmadığına baxmayaraq, skripkanı məktəbin qabağına gətirər, məni musiqi dərsinə aparardı. Bunun üçün isə o, dərs dediyi Rəssamlıq məktəbinə gedərkən, skripkanı özü ilə götürməli olurdu. "Gənc skripkaçı" portreti də bax beləcə yaranmışdır". Burada rəssamın məşhur kompozisiyanın axtarışı prosesində karandaşla çəkdiyi eskizini müqayisə etmək yerinə düşər. Həmin müqayisədən rəssamın fiqurun statik-akademik işlənməsindən daha sərbəst-ifadəli kompozisiya həllinə doğru





**“Kürün sahilində”**
*Karton, yağlı boya, 1957*
**“On the Bank of the Kura”**
*Cardboard, oil, 1957*

**Eskiz**
*Karton, yağlı boya*
**Sketch**
*Cardboard, oil*

təkamül etməsi aydın görünür. Əsərin rəng palitrası tonal nüanslarla zəngindir, burada fiqurun tünd geyimi və xüsusilə nəzərə çarpdırılmış ağ yaxalığı və qırmızı qalstuku zərif-gümüşü fona ustalıqla uyğunlaşdırılıb.

Rəssamın bacısı memar Solmaz Sənədovanın da portreti kifayət qədər maraqlıdır. Qarşımızda yaradıcılıq planları ilə dolu olan gənc qadın görürük. Portret kətanın ön planında iri ölçüdə təsvir olunub. Fiqurun profil quruluşu sanki zamanı, axtarış və yaradıcılıq planlarını təcəssüm etdirir, bütün bunlar fonun nəfis həlli ilə xüsusilə nəzərə çarpdırılır. Fonda yüngül və siluet şəklində işlənmiş tikinti kranları və iri bükülmüş vatman rulonu portreti çəkilən şəxsin peşəsini eyniləşdirmək və onun rəmzi-ümumiləşdirilmiş xarakteristikasını vermək vəzifəsini daşıyır.



**“Pambıqçı qız” Eskiz**
*Karton, yağlı boya, 1955*
**“Cotton-picker Girl” Sketch**
*Cardboard, oil, 1955*

**“Pambıqçı qız”**
*Karton, yağlı boya, 1955*
**“Cotton-picker Girl”**
*Cardboard, oil, 1955*

Portretlərin digər qrupunu rəssamın müasirləri, sadə əmək insanları, müxtəlif peşələrin nümayəndələri təşkil edir. Onların arasında “Tanınmış pambıqçı Sürayə Kərimovanın portreti” (1957), “Geoloq Minirə Məmmədbəylinin portreti” (1960) və “Şamama Həsənovanın portreti”ni (1957) göstərmək olar. Ehtimal etmək olar ki, rəssam bölgələrdə çoxsaylı





səfərləri zamanı həmin insanlarla görüşüb. Bu işlərdə lirik-poetik haldan (Minirə Məmmədbəylinin və Sürayə Kərimovanın portretləri) tutmuş qəhrəmanlıq-proklamasiya vəziyyətinədək (Şamama Həsənovanın obrazı) ifadə tərzinin müxtəlif diapazonunu müşahidə edirik. Hər bir halda Vəcihə Səmədova portreti çəkilən insanın təsviri təcəssümündə öz fərdi həllini tapmaqla bədii ifadə vasitələrinin geniş spektrinə malik peşəkar rəssam olduğunu sübut edir. Belə ki, "Geoloq Minirə Məmmədbəylinin portreti"ndə obraz olduqca maraqlı şəkildə tapılmış, geyimin lokal rəng vurğuları ilə nəzərə çarpdırılmış plastik cəhətdən ifadəli siluet rəsmi vasitə ilə formalaşıb.  Ön planın rəng dolğunluğu üfüqdə qürub edərək suda əks olunan günəşin parlaq ləkəsi ilə tarazlaşdırılır. Pambıqçı Sürayə Kərimovanın obrazı başqa vasitələrlə ifadə edilib. Qarşımızda



**"Göygöl"**
*Karton, yağlı boya, 1953*
**"Goy Gol"**
*Cardboard, oil, 1953*

**"Qırmızı geyimli qız"**
*Karton, yağlı boya, 1962*
**"Girl Clothed in Red"**
*Cardboard, oil, 1962*



nəzərə çarpacaq dərəcədə güclü əlləri olan, çəpərə dirsəklənmiş halda dayanan zəhmətkeş qadının ön planda verilmiş iri təsvirini görürük. Fiqurun çiyninə salınmış kəlağayı həm rəng, həm də plastika baxımından xüsusilə ifadəlidir. Tablonun ayrı-ayrı elementlərini birləşdirən kəlağayı rəsmə səmimi lirizm bəxş edir. Tanınmış pambıqçı Şamama Həsənovanın portreti ağır, əsasən kişilərin gördüyü işlə məşğul olan qadına mədhiyyədir. Cəsarətli rəng yapılması ilə bacarıqla modelləşdirilmiş portret güclü, qətiyyətli insanın simasını əks etdirir. Bu xarakteristika üst geyimin xüsusi qapanması, yaşıl kofta üzərində dalğalanan saçaqlı çəhrayı baş örtüyü və

**"Pambıqçı"**
*Karton, yağlı boya, 1955*
**"Cotton-picker"**
*Cardboard, oil, 1955*

sinədə çarpazlaşdırılmış kobud möhkəm əllərlə nəzərə çarpdırılır. Təsvir edilən tablolar rəssamın portretlər qalereyasının yalnız bir hissəsidir. Lakin onların sənətkarın böyük istedadını, hər bir ayrıca halda portreti çəkilən insanları maksimal ifadə gücü ilə təsvir etmək məqsədi güdən fərdi rəssamlıq həllərini tapmaq bacarığını nümayiş etdirir.

Vəcihə Səmədova həmçinin olduqca maraqlı və parlaq janr əsərlərinin müəllifi kimi milli təsviri sənət tarixinə düşüb. 1957-1960-cı illərdə rəssam olduqca ciddi mərhələ xarakterli tablolar üzərində işləyir – "İmtahandan qabaq" (1958), "Toya hazırlıq" (1957), "Gözləmə" (1956), "Kürün sahilində" (1956), "Lənkəranda toy" (1957). Müxtəlif üslubda çəkilən bu əsərlər müəllifin "akademizm"dən xali olmayan



**"Memar Solmaz Səmədovanın portreti"**
*Kətan, yağlı boya, 1960*
**"Portrait of the Architect Solmaz Samadova"**
*Canvas, oil, 1960*



**"Aktrisa Leyla Bədirbəyli" Eskiz**
*Kağız, tuş, 1954*
**"Actress Leyla Badirbeyli" Sketch**
*Paper, ink, 1954*

**"Aktrisa Leyla Bədirbəyli"**
*Kətan, yağlı boya, 1954*
**"Actress Leyla Badirbeyli"**
*Canvas, oil, 1954*

klassik kompozisiya quruluşlarından Lənkəran silsiləsində öz təcəssümünü tapmış sadə nəfis həllərədək keçdiyi təkamülü əks etdirir. Rəssamın erkən portret işlərini nəzərdən keçirdikdə bir fakt diqqətdən yayınmır – Vəcihə xanım hələ həmin dövrdə bu janrın çərçivələrini genişləndirməyə, ona daha çox tematik məzmun verməyə çalışırdı. Ona görə də müəllifin püxtələşdiyi daha sonrakı mərhələdə portretin tematik rəsmlə uyğunlaşdırılması təsadüfi deyil. Bu baxımdan "İmtahandan qabaq" (1958) tablosunu misal göstərmək olar. Bu, şübhəsiz, tematik tablo olsa da, onu eyni zamanda portret kimi qiymətləndirməyə imkan verən xüsusiyyətlər kifayət qədərdir. Tabloda yarımuzanmış vəziyyətdə xəyala dalmış qarabuğdayı qız təsvir olunub. Onun dərisinin rəngi məharətlə işlənmiş açıq-çəhrayı don, ağappaq yastıq və eyni tonallıqda yerinə yetirilmiş və fiqurun qarşısında təsvir olunmuş gül dəstəsi ilə nəzərə çarpdırılır. Bu iri şux rəng zərbələri tablonu birləşdirərək ona bütövlük bəxş edir. Eyni zamanda bu təəssürat üzərində qız fiqurunun yerləşdirildiyi zəngin naxışlı kilimin təsviri ilə gücləndirilib. Kilimin naxışları, öz növbəsində, tabloya yüngül, işıqlı səslənmə verən cingiltili rəng ritmikasını formalaşdırır. Həmçinin daha bir əhəmiyyətli fakt ondan ibarətdir ki, qızın sifəti kifayət qədər müfəssəl, portretə xas şəkildə işlənmişdir.



“Gözləmə” və “Kürün sahilində” tabloları isə tamamilə başqa cür həll olunub. Ehtimal etmək olar ki, bu əsərlər üçün mövzular respublikanın bölgələrinə çoxsaylı ezamiyyətlərdən alınan təəssüratlar altında meydana gəlib. Onlar müəllifin rəssamlıq bioqrafiyası üçün əlamətdar olmaqla yanaşı, milli incəsənətin müəyyən dövrünün nümunəsi kimi çıxış edir. Adi iş günlərinin və insan fəaliyyətinin poetikləşdirilməsi, “işıqlı gələcək” qurucularının qəhrəmanlıqlarının tərənnüm edilməsi ötən əsrin 50-60-cı illərində yaşamış azərbaycanlı rəssamların əsərlərində xüsusi yer tutur. Həmin dövrdə demək olar ki, bütün incəsənət ustaları mövcud quruluşun ideya tələblərinə uyğun olaraq zərbəçi əməyi tərənnüm etməli,



tikinti qəhrəmanlarına, fəhlə və kolxozçulara həsr olunmuş əsərlər çəkməli idilər. Bir çox Azərbaycan rəssamları bu işi “sifariş” kimi yerinə yetirməklə plakatlılıq və işlənmiş ştampların klonlaşdırılması səviyyəsinə enirdilər. Yalnız ayrı-ayrı sənətkarlar bu tematikaya fərdi yanaşmağa cəhd edirdi. Belə rəssamlardan biri Vəcihə Səmədova idi. Və onun “Gözləmə” və “Kürün sahilində” əsərləri deyilənlərin bariz nümunəsidir.

“Gözləmə” əsərində böyük pambıq tayası üstündə oturmuş gənc qız yarımdönmüş şəkildə təsvir olunub. Fiqurun quruluşu son dərəcə ifadəlidir. Uzağa baxan qız sol əlini alnına yaxınlaşdırıb. Qızın arxasında dərin perspektivdə daha bir hündür tayanın üstündə dayanaraq pambıq



**“Pambıqçı qadın”**
*Kətan, yağlı boya, 1961-1964-cü illər*
**“Woman Cotton-picker”**
*Canvas, oil, 1961-1964*

yığan fiqurlar təsvir olunub. Fiqurlar yüngül, siluet şəklində işlənib. Eyni təsvir üsulu ilə çəkilmiş səmadakı quşlar qrupu həmin fiqurlara uyğun verilib. Bütün bu elementlər tabloya miqyas və dərinlik bəxş edərək, epiklik təəssüratı formalaşdırır. Tablonun koloriti əsərin emosional köklənməsində müəyyənedici rol oynayır. Onun bütün tonallığı işıqlı və şəffafdır, rəng vurğularını müəyyən tarazlaşdırıcı ritmika formalaşdırır,



forma isə sözün həqiqi mənasında ən incə rəng nüanslarından yapılır.

"Kürün sahilində" tablosu isə tamamilə başqa tərzdə işlənib. Burada ağır iş günündən sonra Kürdə çimən iki gənc qadın təsvir olunub. Qəhrəmanlardan biri olduqca plastik ifadəli hərəkətdə - çimdikdən sonra saçlarını sıxır, ikincisi isə hələ də sudadır. Hadisə taxta körpünün üstündə qürub çağı cərəyan edir, bunu günəşin çaya düşən əksindən görmək mümkündür. Bütün kompozisiya üçün fon rolunu oynayan çay gümüşü zərif tonal çalarlarla zəngindir. Bu fonda qızların obrazları daha cəsarətli və

**"Zığ kəndi"**
*Karton, yağlı boya, 1954*
**"Village of Zykh"**
*Cardboard, oil, 1954*

ifadəli verilib, bütün bunlar yuxarıda qeyd edilən plastik həllərdən savayı baş qəhrəmanların geyimlərinin rəng vurğuları ilə də müəyyən olunur. Onların geyimlərində cingiltili zərbələrlə yerbəyer edilən lokal boyalar bir-birini dəstəkləyərək diqqəti hərəkətə yönəldir və ona xüsusi emosional hal bəxş edir.

"Toydan öncə" və "Lənkəran qızları" əsərləri ifa və rəng xarakteristikası baxımından prinsipial dərəcədə başqa üslubda



işlənib. Yuxarıda nəzərdən keçirilən tablolardan fərqli olaraq burada ümumiləşdirmə daha çoxdur, psixologizm arxaya keçir, rənglərin olduqca zəngin təşkili və nəzərə çarpacaq dərəcədə dolğunluğu isə ön plana çıxır. Burada rəng və işıq bolluğu var, fiqurların və onlarla bağlı olan rəng vurğularının ritmik təşkili tabloları struktur cəhətdən birləşdirir, onlara bütövlük və bayram əhval-ruhiyyəsi verir, bu isə əsərlərinin adları ilə uyğunlaşır. Eyni zamanda bu əsərlərdə ətraflı, müfəssəl portret işləməsi yoxdur, bütün fiqurlar, onların sifətləri ümumiləşdirilmiş

**"Damlar"**
*Karton, yağlı boya, 1958*
**"Roofs"**
*Cardboard, oil, 1958*

şəkildə cəsarətlə həll olunub, forma sözün əsl mənasında mürəkkəb rəng həlləri və onların çalarlarının oyunu ilə yapılır, tabloların səthi boyu sistemli şəkildə səpələnmiş ayrı-ayrı vurğular süjeti formalaşdıraraq ona dekorativ səslənmə bəxş edir. Beləliklə, rəssamın peşəkar karyerasının ən məhsuldar dövrünə yekun vurarkən bədii ifadənin yeni üsullarını yorulmadan axtaran Vəcihə Səmədovanın bir görkəmli rəssam kimi istedadının məhz bu mərhələdə daha qabarıq şəkildə üzə çıxdığını təsdiq etmək mümkündür. Onun təhsil zamanı yiyələndiyi fundamental peşəkar biliklər və fitri, etnogenetik rəng duyğusunun inkişafı, Vəcihə Səmədova yaradıcılığı kimi parlaq fenomenin meydana gəlməsini şərtləndirdi.

Tablolarındakı ifadəlilik elementlərinin, onların cingiltili rəng, dekorativ-plastik ritm əmələ gətirən strukturunun gücləndirilməsi istiqamətində axtarışların davamı kimi 1961-ci ildə Bolqarıstana ezamiyyət zamanı və onun təəssüratları altında çəkilmiş əsərlər hesab edilə bilər. Bolqarıstan Xalq Respublikasına sovet rəssamlarından ibarət qrupun (burada həmçinin onun həyat yoldaşı Lətif Feyzullayev də var idi) tərkibində səfər təbiətin daha parlaq və ahəngdar olduğu payız fəslində baş tutdu. Vəcihə xanım burada təqribən bir ay qaldı. Bu müddət ərzində çəkdiyi əlliyə yaxın tablo, etüd və eskizdə ölkənin Sofiya, Plovdiv, Tarnovo, Burqas, Sozopol, Nesebr kimi şəhərlərinin

**"Çadırlar"**
*Karton, yağlı boya, 1957*
**"Tents"**
*Cardboard, oil, 1957*





görüntüləri, onların gəzməli-görməli yerləri, səciyyəvi xüsusiyyətləri, sıravi insanların məişəti və tipajları öz əksini tapmışdır. Bundan əlavə, səfər çərçivəsində rəssam valehedici mənzərələr silsiləsi, o cümlədən "Sozopolun dənizdən görünüşü", "Burqasın sahili", "Nesebr", "Qara dəniz", "Tarnovo. Qaya üzərində evlər" və s. əsərlər üzərində işləyir.

İfa tərzi, rəng həlli, təsvir olunan naturaya yanaşma baxımından bu dövr rəssamın yaradıcılığında ayrıca, çox maraqlı və olduqca parlaq mərhələdir. Ehtimal etmək olar ki, bütün bunlar formalaşmış təsvir üslubunda, rəssamın sənət bioqrafiyasında növbəti təkamül xarakterli addımdır.

Bu işləri rəssamın əvvəlki əsərlərindən fərqləndirən əsas cəhət onların olduqca parlaq, dolğun koloritli olmasıdır. Bu əsərlərdə şux, dekorativ

**"Mahnı"**
*Kətan, yağlı boya, 1961*
**"Song"**
*Canvas, oil, 1961*

cəhətdən ifadəli işıq bolluğu müşahidə edilir. İşıq kətanın plastika və həcmini, forma və strukturunu formalaşdırır. Onun ritmi, fakturası, qatılığı son dərəcə emosional və təsviri şəkildə ifadəlidir.

Təbiət və mənzərələrə müraciət edən, çox şeyi naturadan çəkən, sıravi insanların xarakterik və gündəlik işini müşahidə edən rəssam tədricən ifadəli və müəyyən dərəcədə nağılabənzər-əlvan dünya qurur. Bu aləm çox güman ki, rəssamın konkret axtarışlarına, onun daxili dünya qavrayışına uyğun idi. Və bu mənada Bolqarıstan səfəri yaradıcılıqda keyfiyyət baxımından yeni addımın atılması üçün təkan, qığılcım rolunu oynadı.

Vəcihə xanımın Bolqarıstan səfərinin təəssüratları altında çəkdiyi əsərlər müstəqil silsilə (cəmi 52 tablo) kimi 1962-ci ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Rəssamlıq Salonunda təşkil olunmuş hesabat sərgisində uğurla nümayiş etdirildi. Sonralar tamaşaçılar Moskvada keçirilən "Xarici ölkələr Azərbaycan rəssamlarının yaradıcılığında" adlı sərgidə bu seriya ilə tanış olmaq imkanı qazandılar.

Vəcihə Səmədova 60-cı illərdən başlayaraq ömrünün sonunadək çox sevdiyi mənzərə, portret, tematik tablo janrlarında gərgin fəaliyyət

**"Naxır"**
*Karton, yağlı boya, 1956*
**"Cattle Grazing"**
*Cardboard, oil, 1956*

**"Vaqonda"**
*Karton, yağlı boya, 1958*
**"In the Carriage"**
*Cardboard, oil, 1958*









**“Azərbaycan toyuna hazırlıq”**
*Kətan, yağlı boya, 1957*
**“Preparations for an Azerbaijani Wedding”**
*Canvas, oil, 1957*

göstərir. Lakin bu əsərlərin təsviri üslubu prinsipial cəhətdən yeni şəkil alır. Bir tərəfdən qarşımızda uzun illərin gərgin əməyi nəticəsində öz dəst-xəttini formalaşdırmış yetkin rəssam canlanır. Eyni zamanda bu əsərlərdə seyrçilik, şiddətlənməkdə olan ölümcül xəstəliklə əlaqədar fəlsəfi dalğınlıq halı daha çox müşahidə olunur. Artıq mənzərə əsərlərində gənclik illərində olduğu kimi təbiətin gözəlliyinə heyranlıq əvəzinə, müəllifin keçirdiyi müəyyən halların, düşüncə və hisslərin çatdırılması əsas yer tutur ("Bağda",1964-cü il, "Ətirşah", 1962-ci il, "Toğana kəndi", 1963-cü il, "Ağaclar", 1963-cü il, "Bağ evində", 1962-ci il). Təsvir üsulu daha ekspressiv və qatıdır, natura son dərəcə ümumiləşdirilib, forma isə işıqla, onun çalar və nüansları ilə cəsarətli və məharətli oyunu hesabına qurulur. Son dövrə aid əsərlər etüd, eskiz təsiri bağışlasa da, emosional-məna məzmunu baxımından tamamlanmış əsərlərdir. Eyni sözləri son dövrdə çəkilmiş portretlər barədə də söyləmək mümkündür, onların arasında "Qızım Fatimənin portreti" (1962) daha səciyyəvidir.

**"Ağaclar"**
*Karton, yağlı boya*
**"Trees"**
*Cardboard, oil*

**"Sürəyya Kərimova"**
*Kətan, yağlı boya, 1957*
**"Surayya Karimova"**
*Canvas, oil, 1957*







**"İmtahandan öncə"**
*Kətan, yağlı boya, 1958*
**"Before the Exam"**
*Canvas, oil 1958*



1963-cü ildə “Bizim müasirimiz” adlı respublika sərgisində Vəcihə Səmədova “Xəbər gözləyərkən” adlı tablosunu nümayiş etdirdi. Əsərin süjeti dənizə çıxan doğmalarını sahildə həyəcanla gözləyən insanlara həsr olunub. Tablonun xeyli hissəsini quru təsviri tutsa da, onun koloriti, üzərində nizamsız halda səpələnmiş köhnə qayıqlar, uzaqda dayanan və arxadan təsvir edilmiş insan fiqurları və həyəcanlı dənizin nazik zolağı əsərə səksəkəli, olduqca gərgin bir hal bəxş edir. Ön planda verilmiş iki qız fiquru, onalrın siluetləri məqamın dramatikliyini daha da gücləndirir. Səciyyəvidir ki, buradakı kifayət qədər məhdud rəng palitrası və təsvir üslubu müəllifin əvvəlki əsərlərindən xeyli dərəcədə fərqlənir. Doğma və yaxınlarının sözlərinə görə bu, artıq ölümcül xəstə olan rəssamın son böyük əsəri idi. Son diaqnozu gözləmə anının bütün dramatikliyi ilə verildiyi bu tablo özünəməxsus avtobioqrafik metafora kimi



**Vəcihə Səmədova Bakıda Neft daşlarında, 1958**
**Vajiha Samadova at Oil Rocks, 1958**



qavranıla bilər. Sərgidə böyük təəssürat oyadan bu tablo Vəcihə xanım Səmədovanın yaradıcılıq irsinin əlamətdar hadisələrindən birinə çevrildi.

Təəssüf ki, rəssamın həyat yolu bu dramatik və qəmli notlarla sona çatır. Vəcihə xanım Səmədova ağır və sağalmaz xəstəlikdən sonra 1965-ci ildə dünyasını dəyişir. Onun cəmi 41 yaşı var idi.

Rəssam dünyadan köçsə də, onun irsi, əsərləri, rəsm, etüd və cizgiləri qorunub saxlanılır. Onlar bu gün də emosional baxımdan təravətlidir və öz missiyasını tam məsuliyyəti ilə dərk edən sənətkarın görmüş olduğu böyük və səmimi işi əks etdirir. Onun xatirəsini daima müqəddəs tutan ailəsi tərəfindən müntəzəm qaydada təşkil olunan sərgilər hər dəfə böyük rezonansa səbəb olur və geniş auditoriya toplayır. Çünki Vəcihə Səmədovanın yaradıcılıq irsi böyük peşəkarlıq məktəbi və istedadlı, səmimi sənət nümunəsidir. Belə sənət isə əbədidir, ölməzdir.

***Toğrul Əfəndiyev, Bakı, 2013***

**“Sənaye mənzərəsi”**
*Kağız, pastel*
**“Industrial Landscape”**
*Paper, pastel*

# VAJIHA SAMADOVA

*"Bakuvians remember very well that tall, slender woman with fiery black eyes. Constantly surrounded by the students of Azerbaijan State Art College, where she taught painting for many years, Vajiha Samadova herself was the embodiment of youth and inexhaustible energy".*



**"Kürün sahilində"**
*Kətan, yağlı boya, 1961*
**"On the Banks of Kur River"**
*Canvas, oil, 1961*

